***<u>Firudin Süleymanoğlu</u>***



# *Məhvərdən düşür*

***Daha gədikləri aşa bilmirəm,***
***Ayaqlar yorulur, təpərdən düşür.***
***Könlümdə kök salan fidan arzular,***
***Ləzzətin itirir, şəkərdən düşür.***

***Taleyə inandım göz baxa-baxa,***
***Ömrümü yüklədim fırlanan çarxa,***
***İllərdi su gəlmir o köhnə arxa,***
***Kəhrizlər quruyur, kəsərdən düşür.***

***Zehnimi kiridir dəngi dünyanın,***
***Bəd xəbərlə dolu zəngi dünyanın,***
***Gecə də kirimir cəngi dünyanın,***
***Sülhə olan ümid əsərdən düşür.***

***İqlim də fəsilin yönün dəyişir.***
***Payızınan Qışa Yay donu tikir,***
***Yaz yayın məhsulun yazda yetirir,***
***Təbiətin məğzi əfsərdən düşür.***

***Firudin, kainat yaman çirklənir,***
***Ciyəri zəhərlə dolur, yüklənir.***
***Torpaq da sürüşür, məhvə köklənir.***
***Sanki Yer əyilib məhvərdən düşür.***

---

Ədalət.- 2020.- 9 may. S. 15.